**Pensiya təyinatının və pensiya növünün dəyişdirilməsi üçün müraciətin və sənədlərin qəbulu**

Bu xidmət vasitəsilə vətəndaşlar yaşa, əlilliyə və ailə başçısını itirməyə görə əmək pensiyasının təyin olunması və pensiya növünün dəyişdirilməsi üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu orqanına qanunvericiliklə müəyyən edilmiş sənədlərlə birlikdə elektron müraciət edirlər. Elektron xidmətdən istifadə etmək üçün https://www.e-gov.az - "Elektron Hökumət Portalı"na daxil olaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təqdim olunan elektron xidmətlərin siyahısından *"Pensiya təyinatının və pensiya növünün dəyişdirilməsi üçün müraciətin və sənədlərin qəbulu"* elektron xidmətini seçmək lazımdır.




Açılan pəncərədə Ərizənin ümumi detalları bölməsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun yerli orqanını, müraciətin növünü və pensiyanın növünü seçmək tələb olunur:

## Pensiya təyinatı və pensiya növünün dəyişdirilməsi üçün müraciət




Ərizəçinin göndərən şəxsin məlumatları bölməsində istifadəçinin soyadı, adı, atasının adı, yaşadığı ünvan, doğulduğu tarix, şəxsiyyət vəsiqəsinin seriyası nömrəsi və verilmə tarixi avtomatik qaydada əks olunur. İstifadəçinin telefon nömrəsi və elektron poçtu xanaları ərizə göndərən tərəfindən doldurulur:




Ərizəyə əlavə etmək istədiyiniz fayllar bölməsi vasitəsilə əlavə olunacaq faylın növünü seçərək "Əlavə et" düyməsini sıxmaq lazımdır. Əlvə olunmuş fayllar bölməsində istifadəçi tərəfindən artıq əlavə olunmuş sənədlər əks olunur:




Sonda *"Mənə məlumdur ki, qüvvədə olan qanunvericiliyə əsasən müxtəlif növ əmək pensiyası almaq hüququ olan şəxslər arzularına əsasən bunlardan yalnız birini ala bilər"* və *"Pensiyanın məbləğinin dəyişdirilməsinə təsir edə biləcək bütün dəyişikliklər haqqında* Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında *Dövlət Sosial Müdafiə Fondunun yerli orqanına məlumat verməyi öhdəmə götürürəm"* şərtlərinin təsdiq etmək üçün müvafiq xanaları işarələyək sorğunu göndərə bilərsiniz.

